E-1504

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
Üzvlər N.F.Nəsibova, E.Ş.Qafarov

Etiraz verən iddiaçı- "Rigo Trading S.A" şirkətinin */ünvan: Route de Trèves 6 EBBC, Building E, L-2633 Sennigerberg(LU)/* nümayəndəsi patent müvəkkili V.F.Əfəndiyevin iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

22.02.2018 il tarixdə "Rigo Trading S.A" şirkətinə məxsus "  " əmtəə nişanının beynəlxalq qeydiyyatının 30-cu sinifin əmtəələri üzrə qeydiyyatından imtina edilməsi barədə ekspertizanın 19.07.2017-ci il tarixli rədd qərarına qarşı iddiaçının patent müvəkkili V.F.Əfəndiyev tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsində qeyd edilmişdir ki, aşağıda göstəriliş beynəxalq əmtəə nişanı Əmtəə Nişanlarının Beynəlxalq Qeydiyyatı üzrə Madrid Protokolu vasitəsi ilə Azərbaycanda qeydiyyata təqdim edilmişdir:

- Nişanın adı (təsviri) və qeydiyyat nömrəsi: 1309724 
- Nişanın qeydiyyat tarixi: 17.05.2016
- Nişanın qeydiyyata alındığı sinif və əmtəələrin/xidmətlərin siyahısı:

- 30-cu sinif: “qənnadı məmulatları”
- Nişanın sahibinin adı: “Rigo Trading S.A.”
- Nişan sahibinin ünvanı: Route de Trèves 6 EBBC, Building E, L-2633 Sennigerberg (LU) (Lüksemburq)
- Nişanın qeydiyyat müddətinin bitməsi tarixi: 17.05.2026

Azərbaycan Respublikası “Patent və Əmtəə Nişanları Mərkəzi” 19.07.2017-ci il tarixli Qərarı ilə “Əmtəə nişanı və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun 6-cı Maddəsinin “b” bəndini və “Sənaye Mülkiyyətinin Mühafizəsi Haqqında” Paris Konvensiyasının $6^{quinquies}$ Maddəsinin “B” bəndini əsas tutaraq qeydiyyata təqdim edilmiş yuxarıda göstərilmiş əmtəə nişanına qarşı aşağıda göstərilmiş beynəlxalq əmtəə nişanını qarşı qoymuşdur

- Nişanın adı (təsviri) və qeydiyyat nömrəsi: 1050956 
- Nişanın qeydiyyat tarixi: 24.07.2010
- Nişanın qeydiyyata alındığı sinif və əmtəələrin/xidmətlərin siyahısı:
- 30-cu sinif: qənnadı məmulatları
- Nişanın sahibinin adı: “HARIBO GmbH & Co. KG”
- Nişan sahibinin ünvanı: Hans-Riegel-Strasse 1 Bonn (DE) (Almaniya)
- Nişanın qeydiyyat müddətinin bitməsi tarixi: 24.07.2020

1309724 No-li beynəlxalq əmtəə nişanının sahibi “Rigo Trading S.A.” qeyd edir ki, dünya üzrə bir çox kompaniyalar, o cümlədən həmçinin “Rigo Trading S.A.” kompaniyası 1050956 No-li beynəlxalq əmtəə nişanının sahibi olan “HARIBO GmbH & Co. KG” holdinqinin tərkibinə daxildir. “HARIBO GmbH & Co. KG”-nin 11.07.2015-ci il tarixli ərizəsi əsasında 1050956 No-li beynəlxalq əmtəə nişanı üzrə hüquqlar bütövlükdə 1309724 No-li beynəlxalq əmtəə nişanının sahibi “Rigo Trading S.A.” kompaniyasına verilmişdir. Hal-hazırda, həm 1309724 No-li həm də qarşı qoyulmuş 1050956 No-li nişanların sahibi “Rigo Trading S.A.” kompaniyasıdır. Beləliklə, öncə yaranmış ziddiyət aradan qaldırılmışdır. Yuxarıda göstərilənləri nəzərə alaraq 1309724 No-li beynəlxalq əmtəə nişanının Azərbaycan Respublikası ərazisində qeydiyyatının təmin edilməsi barədə qərar qəbul edilməsi Apellyasiya şurasından xahiş edilmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən patent müvəkkili V.F.Əfəndiyevin çıxışını dinləyib hesab edir ki, etiraz təmin olunmalıdır.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etmişdir ki, “  ” adlı əmtəə nişanı (1309724 beynəlxalq qeydiyyat) 17.05.2016-cı il tarixdə 30-cu sinifin əmtəələri üzrə “Rigo Trading S.A.” kompaniyasının adına qeydiyyata alınmış və həmin qeydiyyat 22.09.2016 (2016/37 Gaz) tarixində Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir.

Ekspertiza rədd qərarında “  ” əmtəə nişanının (1309724) qeydiyyata alınmasından imtina edilməsi üçün əsas kimi Azərbaycan Respublikası ərazisində daha əvvəl “HARIBO GmbH & Co. KG” şirkətinin */ünvanı* - Hans-Riegel-Strasse 1 Bonn (DE)/

adına qeydiyyata alınmış 1050956 saylı “  ” əmtəə nişanına oxşar olması göstərilmişdir.

İddiaçı “Rigo Trading S.A.” kompaniyası “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə əsaslanaraq 10.01.2018 il tarixində imzalanmış Razılıq məktubunu Apellyasiya şurasına təqdim etmişdir. Həmin Razılıq məktubuna görə “HARIBO GmbH & Co. KG” şirkəti, “Rigo Trading S.A.” kompaniyasına onun “  ” (1309724) əmtəə nişanının Azərbaycan Respublikası ərazisində 30-cu sinif əmtəələri ilə istifadəsinə və qeydiyyatına alınmasına razılıq verir.

Şərh edilənlərə əsasən, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin 1-ci, 3-cü hissələrini rəhbər tutaraq və Razılıq məktubu nəzərə alaraq Apellyasiya şurası

Qərara aldı:

1. “Rigo Trading S.A.” kompaniyasına məxsus “  ” adlı əmtəə nişanının 1309724 saylı beynəlxalq qeydiyyatının 30-cu sinifin əmtəələri üzrə qeydiyyatından imtina edilməsi barədə ekspertizanın 19 iyul 2017-ci il tarixli rədd qərarına qarşı iddiaçının patent müvəkkili V.F.Əfəndiyev tərəfindən Apellyasiya şurasına verilmiş ərizə əsaslı hesab olunsun və təmin olunsun.

2. “  ” adlı əmtəə nişanının Azərbaycan Respublikasında 30-cu sinif əmtəələri üzrə 1309724 saylı beynəlxalq qeydiyyata alınmasının rədd edilməsi barədə ekspertizanın 19 iyul 2017-ci il tarixli rədd qərarı ləğv edilmiş sayılsın.

3. “  ” adlı əmtəə nişanının 30-cu sinif əmtəələri üzrə 1309724 saylı beynəlxalq qeydiyyatı Azərbaycan Respublikası ərazisində qüvvədə saxlanılsın.

4. Qeyd olunanlara əsasən Beynəlxalq büroya müəyyən edilmiş qaydada məlumat göndərilsin.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

E.Ş.Qafarov